*Nailə Səmədova. Nizami Gəncəvi irsi Məmməd Səid Ordubadinin araşdırmalarında //Elmi əsərlər,2021,1(12), s.3-8.*

**ƏDƏBİYYATŞÜNASLIQ.**
**Mətnşünaslıq. Mənbəşünaslıq.**

UOT 821.512.162

**Nailə Səmədova,**
*filologiya elmləri doktoru*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
e-mail: nailesamadova@yahoo.com

# NİZAMİ GƏNCƏVİ İRSİ MƏMMƏD SƏİD ORDUBADİNİN ARAŞDIRMALARINDA

**Açar sözlər:** *Ordubadi, Nizami, arxiv, əlyazma, məqalə*

***Giriş.*** *XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadi dahi şairimiz Nizami Gəncəvi haqqında dəyərli araşdırmaların müəllifidir. Yazıçının AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində saxlanılan məqalələri bunu bir daha təsdiqləyir. "Nizaminin dövrü və həyatı" adlanan irihəcmli məqalə ərəb əlfbası ilə yazılmış avtoqrafdır. Arxivdə məqalənin "Nizami dövründə ədəbiyyat", "Nizami doğulmaq ərəfəsində Şərq", "Nizaminin doğulduğu və yaşadığı mühit" adlı hissələrinin qırx vərəq həcmində pərakəndə vərəqləri də saxlanılır. Bu hissələrdən aydın olur ki, yazıçı Nizami Gəncəviyə həsr etdiyi tədqiqat əsəri üzərində əsaslı surətdə işləmiş, ayrı-ayrı hissələri bir neçə variantda yazmış və nəhayət böyük şairdən bəhs edən əsərinin mükəmməl variantını ərsəyə gətirmişdir.*

Ordubadinin "Nizaminin dövrü və həyatı" adlı məqalənin mükəmməl nüsxəsinin əlyazması üzərində müəllif tərəfindən düzəlişlər edilmişdir. "Azərbaycanda ərəb istilası", "Azərbaycanda din və məzhəb ixtilafı", "İslam dininə qarşı xalq üsyanı", "Nizami dövründə ədəbiyyat" adlı bölmələrdən ibarət bu irihəcmli əsərdə Azərbaycanın şairin yaşadığı dövrə qədərki tarixi izlənilir. Müəllif VII yüzildən başlayaraq Azərbaycanın siyasi və iqtisadi durumu haqqında müfəssəl məlumat verir və Nizami Gəncəvinin bütün əsərlərində Azərbaycanın keçirdiyi ağır vəziyyətə laqeyd qalmadığını və tarixi hadisələrdən təsirləndiyini bildirir. Bu konteksdən çıxış edən Ordubadi böyük şairin dövrü və həyatı haqqında tədqiqatını ilk növbədə onun hansı tarixi olaylardan təsir aldığını müəyyənləşdirməyə çalışır.

Tarixi hadisələrin icmalını verən müəllif Nizami Gəncəvinin Sultan Səncərin hökmranlığı dövründə, Azərbaycanın qanlar içərisində inlədiyi bir zamanda doğulduğunu, uşaqlıq və gənclik həyatının mürəkkəb bir dövrə təsadüf etdiyini qeyd edir və Nizami şeirinin iqbal dövrünün Səlcuq xanədanının iqbalının sönməsi ilə başladığını vurğulayır. Nizami Gəncəvi əsərlərinin yazılış tarixi də məhz Eldəgizlər sülaləsinə mənsub Atabəylər hakimiyyəti dövrünə təsadüf edir. Məqalədə Atabəylər dövrünün tarixi hadisələri, bu dövrdə ölkənin siyasi və iqtisadi durumu, xalqın acınacaqlı və çətin vəziyyəti bütün təfərrüatı ilə təsvir edilmiş və Ordubadi bir tarixçi alim kimi bu olaylara öz münasibətini bildirmişdir. Böyük şairin çətin və qorxulu bir zamanda yaşadığını, hökmdarların zalım və müstəbid olduğunu Ordubadi onun əsərlərindən gətirdiyi nümunələrlə canlandırmışdır.

Xalqın və ölkənin belə bir ağır dövründə Nizami Gəncəvi öz zəngin əsərlərini yaradırdı. Bununla belə, onun əsərlərində dövrün tarixi hadisələri əks olunmamışdır. Halbuki onun həyatı və yaradıcılığı qanlı, dəhşətli olaylardan keçmişdir, şair öz əsərləri ilə siyasi düşüncə və siyasi mühakimə cəhətdən daima yüksəkdə olduğunu göstərmişdir. Ordubadi Nizami ilə Firdovsini bu yöndən müqayisə edərək qeyd edir ki, "bu gün biz Firdovsi əsərində zamanın tarixi hadisələrini sıra ilə oxuya biliriksə də, buna baxmayaraq şairin şəxsən bu hadisələrə dair yürütdüyü mühakimələrə təsadüf edə bilmirik. Orada yüksək bədiilik və yüksək təsvirlər varsa da, tarixi hadisələri doğuran səbəblərin geniş təhlilini görmürük" [1, s. 39]. Nizami "İskəndərnamə"si isə dövrün tarixi olaylarını əhatə etmirsə də, bədii əsər olmaqla yanaşı böyük şairin siyasi mühakimələrinə dair dəyərli sənəddir. Bununla belə "... tarixi hadisə və tarixi şəxsiyyətdən istifadə edərkən Nizaminin məqsədi heç də tarixi olduğu kimi nəzmə çəkib oxucuya çatdırmaq olmamışdır. Buna görə də yeri gəldikcə öz poemalarında təsvir etdiyi tarixi hadisə və tarixi şəxsiyyətlər Nizami tərəfindən müxtəlif məna çalarları alır" [2, s.145].

Ordubadi hər iki şairin əsərlərində əfsanəçilik məsələsinə toxunur, Nizaminin Firdovsi ilə müqayisədə əsərlərində geniş fantaziyaçılığa yer verməməsini göstərir və əgər bu olsa da, tənqidi surətdə verildiyini və şairin oxucularını inandırmağa çalışmadığını bildirir. Məsələn, şair İskəndərin zülmətə getdiyini və dirilik suyunu axtardığını yazırsa da, eyni zamanda, "İskəndər ancaq mənim bu əsərimlə həyat çeşməsini tapacaqdır" – deyir.

Firdovsinin yaşadığı mühitlə Nizaminin yaşadığı mühiti müqayisə edən Ordubadi onların əsərlərinin yazıldığı şəraitə də nəzər salır. Qəznəvilər dövründə yaşayan Firdovsinin tarixi əsərini ərsəyə gətirmək üçün geniş imkanları var idi. Dinc və sakit mühitdə mühüm bir əsər yaratmaq o qədər də çətin deyildi. Lakin Nizaminin yaşadığı çətin və mürəkkəb şəraitdə ictimai məsələləri özündə ehtiva edən bədii bir əsər meydana qoymaq böyük mətanət və fədakarlıq tələb edirdi. "Nizami ilə Firdovsi arasında aydın nəzərə çarpan ən mühüm fərqlərdən biri, heç şübhəsiz ki, ideya və dünyagörüşü məsələsi ilə bağlıdır. Firdovsi ilə Nizami müxtəlif dövrlərdə, müxtəlif baxışlar və görüşlər şəraitində yaşamış, hər kəs öz dövrünün ideya, fikir axtarışlarına cavab verməyə çalışmışdır" [3, s.212]. Məmməd Səid Ordubadi eyni zamanda Nizami və Firdovsi əsərlərində təsvir edilən müharibə səhnələrini, hər iki şairin bu müharibələrə münasibətini müqayisə edərək təhlillər aparır.

Ordubadi böyük şairin "Sirlər xəzinəsi" ilə "Xosrov və Şirin" əsərləri arasında olan 20 illik fasiləni, azərbaycanlı bir şairin öz ana dilində əsər yazmamasını onun tez-tez mühacirət etməsi ilə əlaqələndirir və bu səbəbdən əsərlərinin əldə olmamasını təxmin edir, bir çox əsərlərinin tələf olduğu, "Xəmsə"nin Nizaminin şeir dəryasından bir damla olduğu qənaətinə gəlir. "Xəmsə"yə daxil olan beş əsər isə dövlət xəzinəsində mühafizə edildiyindən dövrümüzə gəlib çıxmışdır. "Bunlar Şirvanşahlar, Əlaəddin Təkişlər, Qızıl Arslanlar və Nüsrətəddinlərin əllərinə keçən əsərlərdir. Şairin bundan başqa əsərlərini isə küləklər və qasırğalar məhv etmişdir" [1, s.57].

"Nizaminin dövrü və həyatı" adlı əsərində Ordubadi yalnız Nizami Gəncəvi yaradıcılığını deyil, eyni zamanda, ədəbiyyatın o dövrdəki inkişaf yollarını da yaradıcılıq süzgəcindən keçirir, Şirvan şahlarının şairlərə qoyduğu qiymət və şeir sənətinə verdiyi əhəmiyyəti təhlil edərək belə qənaətə gəlir ki, onların siyasəti şairlərə milli dildə əsərlər yaratmasına imkan verməmişdir. Nizami dövrünün ədəbiyyatının dörd böyük hökumət: Şirvanşahlar, Qəznəvi-

lər, Səlcuqilər və Atabəylər, Xarəzmşahlar saraylarında mərkəzləşdiyini göstərən Ordubadi bu saraylarda fəaliyyət göstərən şairlər haqqında məlumat verir, Əbülüla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani əsərlərindən gətirdiyi nümunələr əsasında onların həyat və fəaliyyətlərini araşdırır. Yazıçı Nizami Gəncəvini dövrünün digər qələm sahibləri ilə müqayisə edir və böyük şairin şeir sahəsində yalnız Şirvanşahlar sarayında deyil, Səlcuqilər, Xarəzmşahlar, Qəznəvilər sarayında böyük nüfuza malik olduğunu bir daha nəzərə çatdırır. O dövrdə Əbülüla Gəncəvinin təşkil etdiyi şairlər əncümənində bir çox şairlərlə yanaşı Xaqani və Fələki də iştirak edirdi. Lakin Nizami Gəncəvi bu cəmiyyətə daxil olmayaraq öz yaradıcılığını müstəqil inkişaf etdirirdi. Bununla belə, o, saray intriqalarından yaxa qurtarmağı bacarmamışdır. Böyük şair Gəncədə və Şirvanda olan əxilər məsləkinə rəhbərlik edirdi. O, "...bütün sufi təriqətlərindən və cərəyanlarından ən cürətlisini, şəhər zəhmətkeşlərini daha cəsarətlə müdafiə edən təriqəti qəbul etmişdir" [4, s.33]. Ətrafına yığılan tərəfdaşlar qanlı müharibələrin qarşısını almaq üçün xalqın qardaşlığını, xalqın birliyini düşünürdü.

Gəncə ziyalılarının əksəriyyəti Şirvan şahlarının sarayına, Təbrizə, Həmədana köçdükləri halda Nizami Gəncəvi aclıq və məhrumiyyətlərə dözərək öz doğma şəhərindən və xalqından ayrılmırdı. Dahi şair "geniş xalq kütlələrinin içində yetişib yüksəlmiş bir şair idi və öz cəsarətli, haqlı tənqidi mülahizələrini söylərkən, hər şeydən əvvəl, xalq kütləsinin özünə arxalanırdı" [5, s.85].

Şəxsi arxivdə ayrıca saxlama vahidi altında Ordubadinin Nizami Gəncəvi haqqında 72 vərəqdən ibarət məqalələri də mühafizə olunur [6]. Bunlar "Nizaminin doğulduğu və yaşadığı mühit", "Nizamiyə təqlid etmiş şairlər", "Nizami inqilabçı şair", "Nizaminin əsərləri haqqında", "Şeyx Nizami Gəncəli", "Nizami tərki-dünya və xalqdan qaçan, sufiməslək və bədbin bir şair", "Nizami mədhgu şair" başlıqları ilə verilmişdir. Bu saxlama vahidi altında Nizami Gəncəvi əsərlərindən 3 vərəq həcmində fars dilində olan nümunələr də vardır.

Ordubadinin "Nizaminin dövrü və həyatı" əsərində "Nizami tərki-dünya və xalqdan qaçan, sufiməslək və bədbin bir şair" məqaləsindəki fikirlərin tam əksi yer almışdır. Dahi şairin xalqa bağlı olduğunu göstərən Ordubadi, eyni zamanda, onun "yaşadığı mühitin ağırlıqlarına, həyatının məhrumiyyət içərisində keçdiyinə, hakimlərin ikiüzlülüyünə, zülm və işkəncəsinə baxmayaraq bədbinlik təsirinə" [1, s.33] düşmədiyini nəzərə çatdırır və fikirlərini şairin əsərlərindən nümunə verməklə təsdiq edir. Başqa bir məqaləsində Ordubadi yazır: "... Nizami xalq şairidir, xalq tərəfdarıdır. Xalqı intibaha, padşahları kef-mayəşadan vaz keçməyə çağıran bir şairdir" [6, s.3].

Digər bir məqaləsində Məmməd Səid Ordubadi Nizamini "mədhgu şair" adlandırır. Halbuki "Nizaminin dövrü və həyatı" əsərində bu fikirlər təkzib edilir. Çox güman ki, Nizami Gəncəvini xalqdan qaçan, bədbin və mədhgu şair kimi qələmə verməsi Ordubadinin dahi şair haqqında tədqiqatlarının ilk mərhələsinə aiddir. Sonrakı illərdə yazdığı opera librettosunda da böyük Nizaminin "şahların hazırladığı xələt ancaq onlara səcdə edən başların çiyninə salınır. Lakin mən Azərbaycan xalqının əməl və arzularını daşıyan bir başın hər bir nakəsin qarşısında əyilməsinə imkan verməyəcəyəm" [7, s.18] sözləri ilə Ordubadi onun xalqa bağlı olduğunu və bir parça arpa çörəyinin sarayın nemətlərindən daha üstün hesab etdiyini göstərir.

Ordubadinin "XII əsrdə Azərbaycan ədəbiyyatı və onun Şərq klassik ədəbiyyatına təsiri" məqaləsini "Nizaminin dövrü və həyatı" əsərinin bir növ davamı nəzərdən keçirmək olar. Doğrudur, məqalədə yer alan bəzi fikirlər təkrardır, bununla belə, bu nümunədə XII yüzil Azərbaycan ədəbiyyatı, əsasən, Nizami Gəncəvi yaradıcılığı və onun Şərq klassik ədəbiyyatına təsiri sistemli şəkildə araşdırılmışdır. O dövrün mürəkkəb tarixi hadisələri, dini çəkişmələr, Səlcuqilər xanədanının süqut etməsi ilə yaranan hərc-mərclik Azərbaycanın siyasi həyatında təbəddülat yaratsa da, ədəbi mühitinə təsiri olmamışdı. Şərqin şairləri Nizami Gəncəvi əsərlərinə nəzirələr yazır və onu təqlid edirdilər. Məqalədə "Xəmsə"yə nəzirə yazan şairlər haqqında məlumat verilir, onların nə dərəcədə uğura nail olduqları göstərilir, bəziləri təqdir, bəziləri tənqid edilir, hətta müvəffəqiyyət əldə edənlərin belə Nizami zirvəsini fəth edə bilmədiyi nəzərə çatdırılır. Lakin Ordubadinin fikrincə, "... nəzirəçilikdə şəxsi yaradıcılıq və orijinallıq özünü göstərə bilmir və şair başqasının fikrini təzə bir dona geydirmək və iqtibasçılıq xəstəliyinə tutulmaq məcburiyyəti qarşısında qalırdı" [8, s.8].

Nizami Gəncəvi əsərlərində şairin dinə olan münasibətini Məmməd Səid Ordubadi "Nizamidə dinçilik" adlı məqaləsində [9] təhlil etməyə çalışmışdır. Yazıçının şəxsi arxivində məqalənin ərəb əlifbası ilə qələmə alınmış avtoqraf nüsxəsi saxlanılır. Ordubadi məqalədə Nizaminin əsərlərini Rudəkinin və onun müasirlərinin əsərləri ilə müqayisə edərək bu qənaətə gəlmişdir ki, Rudəki və onun müasirləri əsərlərinin müqəddimələrini eşq, məhəbbət mövzusu ilə başladıqları halda, Nizami əsərlərinin dibaçələrini Allahın adı ilə başlayır. Ordubadi öz qənaətlərini Rudəkinin əsərindən və Nizami Gəncəvi "Xəmsə"sindən verdiyi nümunələrlə əsaslandırmışdır.

Məmməd Səid Ordubadinin şəxsi arxivində Nizami Gəncəvi haqqında irihəcmli əsəri ilə yanaşı, daha öncə qeyd etdiyimiz kimi, kiçik həcmli silsilə məqalələri də vardır ki, bunların bəziləri haqqında məlumat verildi. Arxivdə "Böyük şairin yaşadığı mühit" adlı bir vərəq həcmində məqalə ərəb əlifbası ilə yazılmış avtoqraf nüsxədir, üzərində düzəlişlər edilmişdir. "Nizaminin doğulduğu və yaşadığı mühit" məqaləsi nisbətən genişdir, altı vərəqdən ibarətdir. Müəllif bu məqalədə əsasən dövrün tarixi olaylarından, böyük şairin əsərlərinin yazılma tarixindən bəhs edir. "Nizamiyə təqlid etmiş şairlər" məqaləsində Əlişir Nəvai və Nizami "Xəmsə"si haqqında fikirlər yürüdülür. "Nizami inqilabçı şair" məqaləsində müəllif böyük şairin xalqa yaxın olduğunu, digər şairlər kimi saraylara getməyərək azad yaşamasını göstərir, xalqa yaxınlığı, Ordubadinin təbirincə, inqilabçılıq ruhunun "Xosrov və Şirin" əsərində daha aydın əks olunduğunu verdiyi nümunələrlə nəzərə çatdırır. "Nizaminin əsərləri haqqında" məqaləsində dahi şairin əsərləri təhlil edilir, səlis təbə malik bir söz ustadı kimi qiymətləndirilir. "Şeyx Nizami Gəncəli" məqaləsində şairin həyatı və əsərləri haqqında təzkirələrə istinadən, müqtədir şairlərin fikirlərinə yönəlik, eyni zamanda, Ordubadinin öz tədqiqatları əsasında qısa məlumat verilir, şairin türklüyü barədə fikirlər yürüdülür.

***Nəticə.*** *Məmməd Səid Ordubadinin dahi şairimiz Nizami Gəncəviyə həsr etdiyi məqalələri dövrün tarixi olaylarını, Nizami sənətinin özəlliklərini, Ömər Xəyyamın, Məhsəti Gəncəvinin, Xaqani Şirvaninin və Şərqin digər şairlərinin həyat və yaradıcılığını öyrənmək baxımından əhəmiyyətlidir. Böyük şairin həyatının, dövrünün, mühitinin öyrənilməsində dəyərli əsərlər olan bu nümunələrlə Ordubadi nəinki Nizami dövrünün və yaradıcılığının, eləcə də Şərq ədəbiyyatının mütəxəssisi kimi özünü təsdiqləmişdir. Məmməd Səid Ordubadi*

*mütəfəkkir şair Nizami Gəncəvi haqqındakı silsilə məqalələrində onun dövrünü, həyatını, yaradıcılığını mötəbər mənbələrə əsaslanaraq təhlil və tədqiq etmiş, öz elmi mülahizələrini nəzərə çatdırmışdır.*

**Ədəbiyyat:**

1. Ordubadi M.S. Nizaminin dövrü və həyatı. AMEA ƏYİ, f. 14, s.v. 415.
2. Kərimli T. Nizami və tarix. Bakı: Elm, 2002.
3. Yusifli X. Nizami Gəncəvi: Sələflər və xələflər. Bakı: Adiloğlu, 2011.
4. Bertels Y. Böyük Azərbaycan şairi Nizami. Bakı: Təhsil, 2017.
5. Ağayev Ə. Nizami və dünya ədəbiyyatı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964.
6. Ordubadi M.S. Nizami haqqında məqalələr. AMEA ƏYİ, f. 14, s.v. 417.
7. Ordubadi M.S. Nizami. AMEA ƏYİ, f. 14, s.v. 238.
8. Ordubadi M.S. XII əsrdə Azərbaycan ədəbiyyatı və onun Şərq klassik ədəbiyyatına təsiri. AMEA ƏYİ, f. 14, s.v. 420.
9. Ordubadi M.S. Nizamidə dinçilik. AMEA ƏYİ, f. 14, s.v. 414.

***Самедова Наиля***

**НАСЛЕДИЕ НИЗАМИ ГЯНДЖАВИ В ИССЛЕДОВАНИЯХ МАМЕД САИДА ОРДУБАДИ**

**Резюме**

Выдающийся писатель Мамед Саид Ордубади является автором серии статей, посвященных великому поэту азербайджанской литературы XII века Низами Гянджеви. Эти статьи хранятся в личном архиве писателя в Институте Рукописей имени Мухаммада Физули НАНА. В произведениях «Период и жизнь Низами», «Среда Низами, где он родился и жил», «О творчестве Низами», «Шейх Низами Гянджали», «Религия в Низами» Ордубади анализирует и изучает жизнь, творчество и среду, в которой жил великий поэт.

В статье представлены произведения Мамед Саида Ордубади о великом поэте и значении этих произведений в изучении наследия Низами Гянджеви.

**Ключевые слова:** *Ордубади, Низами, архив, рукопись, статья.*

***Samadova Naila***

**NIZAMI GANJAVI'S LEGACY FOUND IN THE RESEARCH OF MAMMAD SAID ORDUBADI**

**Summary**

Our prominent writer Mammad Said Ordubadi is the author of a series of articles dedicated to the great poet of the 20th century Azerbaijani literature, Nizami Ganjavi. These articles are kept in the personal archive of the writer at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Ordubadi analyzes and studiesthe life, creativity and environment of the great poet Nizami in his works: "Nizami's period and life", "Nizami's

birth and living environment", "On Nizami's works", "Sheikh Nizami Ganjali" and "Religion in Nizami".

The article presents the works of Mammad Said Ordubadi about the great poet and the importance of these works in the study of Nizami Ganjavi's legacy.

**Key words:** *Ordubadi, Nizami, archive, manuscript, article.*

*Redaksiyaya daxil olma tarixi: 23.02.2021*
*Çapa qəbul olunma tarixi: 12.03.2021*

*Filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.*